№ 2 (15) 2022

Elməddin Mahmud oğlu Behbud
Bakı Dövlət Universiteti
Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının dissertantı

# "MOLLA NƏSRƏDDİN" ENSİKLOPEDİYASININ TƏRTİBATI VƏ NƏŞRİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə.*** *Məqalədə "Molla Nəsrəddin" ensiklopediyasının nəşrindən bəhs olunur. Burada həmçinin nəşrin ərsəyə gəlməsi üçün verilən qərar və göstərişlər, redaksiya heyəti, əsas məqalə müəllifləri haqqında məlumat verilir.*

*Məlumdur ki, 25 il fəaliyyət göstərən "Molla Nəsrəddin" jurnalı Azərbaycanda satirik mətbuatın əsasını qoymuşdur. Bu ensiklopediya vahid süjet və kompozisiya əsasında qurulmuş mükəmməl və sanballı bir əsər təsiri bağışlayır. Çünki mövzu və problematika baxımından zəngin olan bu orijinal məlumat kitabı bir neçə istiqamətdə şaxələnsə də, vahid bir məcrada, yəni "Molla Nəsrəddin" və mollanəsrəddinçilər ətrafında təmərküzləşərək mükəmməllik yaradır, ensiklopediyanın effektivliyini və əhəmiyyətini artırır.*

*Tədqiqatçı məqalədə nəşri bütöv şəkildə təhlil edir, onun quruluşunu açır, strukturu haqqında əhatəli məlumat verir. Müsbət küyfiyyətləri ilə yanaşı tədqiqtçı yeri düşdükcə məqlədə yol verilən nöqsanlı cəhətlərdən də bəhs edir.*

*Açar sözlər: "Molla Nəsrəddin" ensiklopediyası, tərtibat, redaktor, nəşr, redaksiya heyəti, məqalə.*

Elmaddin Mahmud oglu Behbud

# COMPILATION AND PUBLICATION CHARACTERISTICS OF "MOLLA NASRADDIN" ENCYCLOPEDIA

***Abstract:*** *The article mentions the publication of the "Molla Nasreddin" encyclopedia. It also provides information about the decisions and instructions for the creation of the publication, the editorial team, and the authors of the main articles. It is known that the "Molla Nasreddin" magazine, which has been active for 25 years, lays the foundation of the satirical press in Azerbaijan. This encyclopedia gives the impression of a perfect and balanced work based on a single plot and composition. Because this original information book, which is rich in terms of topics and issues, diverges in several directions, but it is concentrated in a single direction, that is, around "Molla Nasreddin" and Mollanesreddinners, it creates perfection and increases the effectiveness and importance of the encyclopedia. In the article, the researcher analyzes the publication as a whole, reveals its structure, and provides comprehensive information about its structure. In addition to its positive qualities, the researcher also mentions the shortcomings of the article.*

***Keywords:*** *"Molla Nasreddin" encyclopedia, compilation, editor, publication, editorial team, article.*



KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 2 (15) 2022

Эльмаддин Махмуд оглу Бехбуд

# ОСОБЕННОСТИ СОСТАВЛЕНИЯ И ИЗДАНИЯ ЭНЦИКЛОПЕДИИ "МОЛЛА НАСРЕДДИН"

***Резюме:*** *В статье говорится об издании энциклопедии «Молла Насреддин». Там же представлена информация о решениях и показаниях по созданию издания, о редколлегии и авторах основных статей.*

*Известно, что журнал «Молла Насреддин», действующий уже 25 лет, заложил основу сатирической публицистики в Азербайджане. Эта энциклопедия производит впечатление совершенного и сбалансированного произведения, основанного на едином сюжете и композиции. Богатая по темам и проблематике эта оригинальная информационная книга, хоть и разветвляется в нескольких направлениях, но концентрируется в единой позиции, то есть вокруг «Молла Насреддина» и Молланесреддиновцев, и таким образом достигает совершенства и повышает эффективность и значимость энциклопедии.*

*В статье исследователь анализирует издание в целом, раскрывает его строение, дает исчерпывающую информацию о его структуре. Наряду положительными качествами исследователь в статье указывает и некоторые недостатки энциклопедии.*

***Ключевые слова:*** *энциклопедия «Молла Насреддин», сборник, редактор, издание, редакция, статья.*

Müasir dövrdə Azərbaycanda informasiya cəmiyyəti quruculuğu kitab nəşri işinin, o cümlədən sahə ensiklopediyalarının elmi-nəzəri və metodoloji məsələlərinin yenidən işlənməsini zərurətə çevirir. Sahə ensiklopediyalarının aktuallığı soraq-məlumat nəşrlərinin sosial və informasiya funksiyalarının artması ilə də sıx bağlıdır.

Respublikamızda ensiklopediya nəşri üçün zəngin elmi baza və geniş oxucu kütləsinin mövcudluğu ən müasir və müxtəlif sahələr üzrə ensiklopediya yaratmağa imkan verir. Bu gün, demək olar ki, bir çox böyük nəşriyyatlarda müxtəlif mövzulu lüğət və məlumat kitabları, sahə ensklopediyaları nəşr olunur, oxucular arasında geniş yayılır. Bütün bunlar Azərbaycanda sahə ensiklopediyalarının yaranması, nəşri və inkişaf xüsusiyyətləri sahəsində kitabşünaslıq elminin tələbləri səviyyəsində tədqiqatın aparılmasının həm nəzəri, həm də təcrübi cəhətdən əhəmiyyətli və çox aktual olduğunu sübut edir.

Azərbaycanda sahə ensiklopediyalarının, ensiklopedik lüğətlərinin, mövzu soraq kitablarının nəşri sahəsində son illərdə diqqətəlayiq tədbirlər həyata keçirilmiş, çox sayda sahə ensiklopediyaları çapdan buraxılaraq oxucuların istifadəsinə verilmişdir. Belə nəşrlərdən biri də 2020-ci ildə "Elm" nəşriyyatında çapdan çıxmış 468 səhifə həcmində olan "Molla Nəsrəddin" ensiklopediyasıdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 3 iyul 2020-ci il tarixli qərarı ilə (protokol №3) işıq üzü görən "Molla Nəsrəddin" ensiklopediyası İnstitutun Mətbuat tarixi və publisistika şöbəsində nəşrə hazırlanaraq çap edilmişdir.

Nəşrin baş redaktoru akademik İsa Həbibbəyli, tərtib edib çapa hazırlayanı professor Vüqar Əhməd, məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayevadır. Nəşrin redaksiya heyəti Ramiz Mehdiyev, Anar, İsa Həbibbəyli, Teymur Kərimli, Vüqar Əhməd, Asif Rüstəmli, Gülbəniz Babayeva, Əlizadə Əsgərli, Aygün Bağırlı və Mehman Həsənlidən ibarətdir.

Ensiklopediyanın titul səhifəsinin arxa tərəfində nəşrdə əsas məqalələrin müəlliflərinin adları xüsusi olaraq tərtibata daxil edilmişdir.

Nəşrin əvvəlində verilən ön sözün müəllifi akademik İsa Həbibbəylidir. "Molla Nəsrəddin" ədəbi məktəbinin ensiklopediyası" adlanan bu yazıda alim XX əsrin əvvəllərini zaman etibarilə Azərbaycan ədəbiyyatı və mətbuatının xüsusi inkişaf mərhələsi kimi dəyərləndirmişdir. O yazır: "XX əsrin əvvəllərinin milli-demokratik intibah proseslərinin əsas lokomotivi C.Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı idi. Əvvəla, digər mətbuat orqanları qısa müddət fəaliyyət göstərdiyi üçün ictimai-siyasi və ədəbi-mədəni proseslərin inkişafında 25 il mətbuat və ədəbiyyat cəbhəsində ön mövqeydə dayanmış "Molla Nəsrəddin" qədər rol oynaya bilməmişlər. İkinci, "Molla Nəsrəddin" jurnalı dövrün ən tanınmış, istedadlı, milli düşüncəyə malik ziyalılarını öz ətrafında birləşdirməyi bacarmışdır. C.Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Qəmküsar, M.Möcüz (Şəbüstəri), B.Abbaszadə, Ə.R.Şamçızadə, M.Sidqi, Ə.Məhzun və b. kimi görkəmli yazıçı, şair və publisistlər, "Molla Nəsrəddin" ordusunun mübariz əsgərləri kimi həm milli istiqlal uğrunda, həm də realist-demokratik ədəbiyyat yollarında dönmədən mübarizə aparmaqda davam etmişlər [1, s.4].

Təsadüfi deyil ki, akademik İsa Həbibbəyli C.Məmmədquluzadəni Azərbaycan milli istiqlal ədəbiyyatının sərkərdəsi adlandırır və belə qeyd edir ki, Azərbaycan xalqının milli isqtiqlala, müstəqil dövlətçiliyə hazırlanmasında C.Məmmədquluzadənin əsərləri və ideyaları, "Molla Nəsrəddin" jurnalının çağırışları mühüm rol oynamışdır.

Ensiklopediyada tərtibata daxil edilən növbəti məqalə "Görkəmli dövlət xadimi Heydər Əliyev "Molla Nəsrəddin" jurnalı və Mollanəsrəddinçilər haqqında" adlanır.

Məlumdur ki, hakimiyyətdə olduğu bütün dövrlərdə zəngin və çoxşaxəli Azərbaycan ədəbiyyatına, milli mətbuatımıza və onun yaradıcılarına yüksək qiymət verən Heydər Əliyev görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə irsinə, onun redaktorluğu ilə nəşr edilən "Molla Nəsrəddin" jurnalına və mollanəsrəddinçilərin yaradıcılığına həmişə böyük dəyər vermişdir. O, "Molla Nəsrəddin" ədəbi hərəkatının yaradıcısı C.Məmmədquluzadə, bu məktəbin aparıcı qüvvələri olan M.Ə.Sabir, Ə.Haqverdiyev, M.S.Ordubadi, Ü.Hacıbəyli, Ə.Nəzmi, Ə.Qəmküsar, S.Mümtaz və başqalarının satirik mətbuatımızın, Azərbaycan ədəbiyyatının təşəkkülü, formalaşması və inkişafındakı böyük xidmətlərini xalqımızın tarixinə yazılmış ən qiymətli səhifələr hesab etmişdir: "XX əsr Azərbaycan ədəbiyyatının tarixinə Sabir, C.Məmmədquluzadə və inqilabi-demokratik "Molla Nəsrəddin" jurnalı ətrafında birləşərək...maarifçilik və demokratik ənənələri davam və inkişaf etdirən digər yazıçıların parlaq adlarını yazmışdır" [1, s.10].





C.Məmmədquluzadənin yaradıcılığına xüsusi rəğbət bəsləmiş Ulu öndər Heydər Əliyev böyük ədibin redaktorluğu ilə çap olunmuş "Molla Nəsrəddin" jurnalının fəaliyyətinə də yüksək qiymət vermişdir. Heydər Əliyevin 1994-cü il tarixli sərəncamı ilə böyük ədibin anadan olmasının 125 illik yubileyinin keçirilməsi və yubiley mərasimində dövlət başçısının məruzə ilə çıxış etməsi həmin ehtiramın nümunəsidir.

C.Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr olunmuş möhtəşəm tədbirdə məruzə ilə çıxış edən Heydər Əliyev belə bir mərasimi böyük yazıçının ölməz ədəbi irsinə Azərbaycan dövlətinin və xalqının verdiyi yüksək dəyərin təzahürü kimi səciyyələndirmişdir [1, s.10].

Ensiklopediyaya daxil edilən məqalələr əlifba üzrə sistemləşdirilmişdir. Nəşrin formatı 60x84, həcmi isə 58,5 çap vərəqidir. Əlifba sırasına uyğun olaraq birinci bölmədə 21 məqalə verilmişdir: Abbas Zamanov (Asif Rüstəmli), Abdulla Cövdət (Aynurə Paşayeva), Abunə olmaq şərtləri (Gülbəniz Babayeva), "Ac hərflər" (Elçin Mehrəliyev), "Açıq söz" (Asif Rüstəmli), Axund Mirzə Əbu Turab Axundzadə (Asif Rüstəmli), Aqil Abbas (Vüqar Əhməd), Aleksey Osipoviç Çernyayevski (Aynurə Paşayeva), "Allahsız" (Gülbəniz Babayeva), Allahverdi Məmmədli (Gülbəniz Babayeva), "Anamın kitabı" (Elçin Mehrəliyev), Anar (Qurban Bayramov), "Anaş qurbağa" (Elmira Qasımova), "Arı" (Rauf Sadıxov), Arif Abdullazadə (Bədirxan Əhmədov), Ataxan Paşayev (Elçin Mehrəliyev), Atalar sözləri (Gülbəniz Babayeva), Aygün Orucova (Vüqar Əhməd), Aytəkin Qəhrəmanova (Vüqar Əhməd), "Azərbaycan" (Pərvanə Məmmədli), "Azərbaycan" (Elçin Mehrəliyev).

Əlifba sırasına görə "A" hərfi üzrə on bir məqalə müəllifinin portret rəsmi verilib. Bunlardan bəziləri ağ-qara, bəsiləri isə rənglidir. Bu bölmədə cəmi 6 foto şəkil, bir xəritə yer almışdır.

Əlifba sistemi üzrə növbəti qruplaşma "B" hərfi üzrədir. Burada 10 məqalə tərtibata daxil edilmişdir: Burada "Babayi-Əmir" (Rauf Sadıxov), Bağır xan (Aynurə Paşayeva), "Bayatılar" (Gülbəniz Babayeva), Bayram Hacızadə (Təhminə Vəliyeva), Bayraməli Abbaszadə (Asif Rüstəmli), "Bəhlul" (Rauf Sadıxov), Bəhri-təvil (İsa Həbibbəyli), Bəhruz Kəngərli (Gülbəniz Babayeva), "Bəsirət" (Dilbər Rzayeva), "Bürhani-tərəqqi" (Vəfa Babasoy). Burada isə 5 portret, 1 foto şəkil yer almışdır.

Növbəti sırada "C" hərfi üzrə məqalələrin sayı 4-dür: Cəfər Cabbarlı (Asif Rüstəmli), Cəlil Məmmədquluzadə (İsa Həbibbəyli), "Cırcırama" (Elmira Qasımova), "Cüvəllağı" (Elmira Qasımova). Bu bölmədə isə iki portret, 3 rəngli foto daxil edilmişdir.

"Ç" bölgüsündə isə "Çay dəstgahı" (İsa Həbibbəyli), "Çayan" (Aynurə Paşayeva) adlı 2 məqalə verilmişdir. Bu bölmədə isə 3 foto şəkil verilmişdir.

"D" bölgüsündə "Dabanıçatdax xala" (Elmira Qasımova), Daxili xəbərlər (Gülbəniz Babayeva), "Danabaş kəndinin əhvalatları" (Gülbəniz Babayeva), "Danabaş kəndinin məktəbi" (Aynurə Paşayeva), Daş basması (Gülnar Qasımlı), Dəbistan (Rauf Sadıxov), "Dəli" (Elmira Qasımova), "Dəli yığıncağı" (Gülbəniz Babayeva), "Dəllək" (Ayaz Vəfalı), "Dəmdəməki" (Elmira Qasımova), "Dərviş" (Gülnar Qasımlı), "Dəyənək" (Asif Rüstəmli), Difai (Rauf Sadıxov), "Din və məişət"

(Təhminə Vəliyeva) məqalələri ilə tanış oluruq. Bu məqalələrin sayı 14-dür. Burada isə 5 foto şəkil verilmişdir.

Növəti bölgü "E" hərfi üzrə aparılmışdır: El ədəbiyyatı (Gülbəniz Babayeva), Elanlar (Gülbəniz Babayeva), Elçin Əfəndiyev (Qurban Bayramov), Elxan Qiyasbəyli (Təhminə Vəliyeva), Elxan Nəcəfov (Mehman Həsənli), Elməddin Əlibəyzadə (Asif Rüstəmli), Elmira Axundova (Asif Rüstəmli), Elmira Qasımova (Gülbəniz Babayeva), Erməni-müsəlman davası (Elçin Mehrəliyev), "Eşşəyin itməkliyi" (Aynurə Paşayeva), Eynəli bəy Sultanov (İsa Həbibbəyli). Burada verilən məqalələrin cəmi sayı 11-dir. Məqalələrin daxilində 5 portret, bir foto şəkil təqdim edilmişdir.

"Ə" bölgüsündə 29 məqalə tərtıbata daxil edilmişdir: Əbdülhəmid II (Aynurə Paşayeva), Əbdülxalıq Axundov (Rauf Sadıxov), Əbdürrəhim bəy Haqverdiyev (Gülbəniz Babayeva), "Əbunesr Şeybani" (Alxan Məmmədov), Əbülfəz Əzimli (Vüqar Əhməd), Ədəbiyyat (Gülbəniz Babayeva), Əflatun Məmmədov (Vəfa Babasoy), Əhməd bəy Ağaoğlu (Elçin Mehrəliyev), Əhməd bəy Cavanşir (Qurban Bayramov), Əhməd Kamal (Solmaz Həyatova), "Əqrəb" (Müştəba Əliyev), Əli bəy Hüseynzadə (İslam Qəribli), Əliheydər Hüseynov (Elmira Qasımova), Əliheydər Qarayev (Vəfa Babasoy), Əli Məhzun (Asif Rüstəmli), Əli Nazim (Asif Rüstəmli), Əli Nəzmi (Gülbəniz Babayeva), Əli Razi Şamçızadə (Gülbəniz Babayeva), Əli Səbri (Ayaz Vəfalı), Əli Sultanlı (Rauf Sadıxov), Əliabbas Müznib (Vəfa Babasoy), Əliqulu Qəmküsar (Rauf Sadıxov), Əmin Abid Mütəllibzadə (Vəfa Babasoy), "Ər" (Ayaz Vəfalı), Ərəb əlifbası (Gülnar Qasımlı), Əzim Əzimzadə (Rauf Sadıxov), Əziz Mirəhmədov (Rauf Sadıxov), Əziz Nesin (Vəfa Babasoy), Əziz Şərif (İslam Qəribli). Burada isə 23 portret şəkli və iki foto şəkil mətnlər daxilində yer alır.

"F" üzrə "Felyeton" (Gülbəniz Babayeva), "Fəqir" (Gülnar Qasımlı), "Fərhad Ağazadə" (Rauf Sadıxov), Fərman Bayramov (Vüqar Əhməd), Fərrux Ramazanov (Təhminə Vəliyeva), "Filankəs" (Gülnar Qasımlı), Firudin bəy Köçərli (İsa Həbibbəyli), "Firqə və din" (Aynurə Paşayeva), Firudin Hüseynov (Asif Rüstəmli), "Füyuzat" (Asif Rüstəmli), "Füzuli" (Teymur Kərimli) adlı məqalələr tərtibata daxil edilmişdir ki, bunların sayı 11-dir. Bu bölmədə 5 portret, 1 foto şəkil təqdim edilir.

"G" hərfi isə 133-cü səhifədən başlayır bə bura iki məqalə daxil edilmişdir: "Gizli imzalar" (Elmira Qasımova) və Gülbəniz Babayeva (Vüqar Əhməd). Bu bölgüdə də bir foto, bir portret şəkli yer almışdır.

"H" hərfi üzrə 17 məqalə daxil edilmişdir: Hacıağa Abbasov (Asif Rüstəmli), Hacı İbrahim Qasımov (Rauf Sadıxov), "Hmballar" (Elçin Mehrəliyev), "Heyvərə" (Gülnar Qasımlı), Həbib Cəbiyev (Rauf Sadıxov), Həbibbulla Səmədzadə (Asif Rüstəmli), Həmidə Məmmədquluzadə-Cavanşir (Asif Rüstəmli), "Hərdəmxəyal" (Elmira Qasımova), "Həyat" (Vəfa Babasoy), "Hikmətli sözlər" (Gülbəniz Babayeva), Hindarx (Asif Rüstəmli), "Hop-Hop" (Alxan Məmmədov), Hüseyn Cavid (Ayaz Vəfalı), Hüseyn Əliyev (Gülbəniz Babayeva), Hüseyn Əsgərov (Gülbəniz Babayeva), Hüseyn İsrafilov (Ruf Sadıxov), Hüseyn Minasazov (Gülbəniz Babayeva). Burada da 5 portret, 3 foto şəkil verilmişdir.

"X" hərfi üzrə 12 məqalə verilmişdir: Xalid Əlimirzəyev (Qurban Bayramov), Xalid Xürrəm Səbribəyzadə (Solmaz Həyatova), Xalid Səid Xocayev (Müştəba Əliyev), "Xanın təsbehi" (Aynurə Paşayeva), Xarici xəbərlər (Gülbəniz Babayeva),





"Xatiratım" (Ayaz Vəfalı), Xeyriyyə cəmiyyətləri (Vəfa Babasoy), Xeyrulla Məmmədov (İslam Qəribli), Xəlil Musayev (İsa Həbibbəyli), "Xortdan" (Elmira Qasımova), "Xudafərin" (Vüqar Əhməd), Xudayar bəy (Gülbəniz Babayeva) Burada isə 5 portret, 3 foto şəkil verilmişdir.

"İ" hərfi üzrə 10 məqalə: İdarədən-idarəyə məktub (Aynurə Paşayeva), İman Cəfərli (Gülbəniz Babayeva), İosif Rotter (Rauf Sadıxov), "İranda hürriyyət" (Gülbəniz Babayeva), "İrşad" (Təhminə Vəliyeva), İsa Həbibbəyli (Vüqar Əhməd), İslam Ağayev (Asif Rüstəmli), İsmayıl Axundov (Gülbəniz Babayeva), İsmayıl Həqqi Həsənzadə (Gülbəniz Babayeva), "İsmayıl bəy Qaspiralı" (Abid Tahirli) verilmişdir. Burada isə 7 portret, 4 foto şəkil tərtibata daxil edilmişdir.

"K" hərfi üzrə 15 məqalə: Kamal Camalov (Vüqar Əhməd), "Kamança" (İsa Həbibbəyli), Karikatura (Gülbəniz Babayeva), "Kavkazski raboçi listok" (Aynurə Paşayeva), Kazan məktubları (Aynurə Paşayeva), "Keçmiş günlər" (Elmira Qasımova), "Kefsiz" (Elmira Qasımova), Kəhrizli (Asif Rüstəmli), "Kəlniyət" (Rauf Sadıxov), "Kəndli" (Gülnar Qasımlı), "Kişmiş oyunu" (Gülbəniz Babayeva), "Konsulun arvadı" (Aynurə Paşayeva), Konstantin Dorş (Gülbəniz Babayeva), Krım məktubları (Aynurə Paşayeva), "Kukureku" (Gülbəniz Babayeva) verilmişdir. Burada isə 1 portret, 4 foto şəkil verilmişdir.

"Q" hərfi üzrə 14 məqalə: Qafqaz xəbərləri (Gülbəniz Babayeva), Qarabağ (Gülbəniz Babayeva), Qeyrət (Rauf Sadıxov), "Qəmişqulu" (Gülnar Qasımlı), "Qəssab" (Aynurə Paşayeva), Qəzənfər Xalıqov (Gülbəniz Babayeva), Qəzənfər Kazımov (Vüqar Əhməd), Qəzənfər Paşayev (Ayaz Vəfalı), "Qızdırmalı" (Elmira Qasımova), "Qoloşapoy" (Elçin Mehrəliyev), Qorxmaz Quliyev (Mehman Həsənli), Qulam Məmmədli (Asif Rüstəmli), "Qurbanəli bəy" (Gülbəniz Babayeva), Qurbanəli Şərifov (Rauf Sadıxov) tərtibata daxil edilmişdir.

"L" bölgüsündə isə cəmi 3 məqalə nəşrdə yer alır: "Lağlağı" (Elmira Qasımova), "Lənət" (Gülbəniz Babayeva), Lüğət (İsa Həbibbəyli). Burada isə təkcə bir foto şəkil verilmişdir.

Əlifba sırasına görə cərgələnən növbəti bölgü "M" hərfi üzrədir. Burada 60 məqalə tərtibata daxil edilmişdir: "Maarif və mədəniyyət" (Rauf Sadıxov), "Marallarım" (Aynurə Paşayeva), "Mehdi Hüseyn" (Gülbəniz Babayeva), "Mehriban Sultanova" (Gülbəniz Babayeva), "Məhəmməd ağa Şahtaxtlı" (İsa Həbibbəyli), "Məhəmməd Əmin Rəsulzadə" (Asif Rüstəmli), "Məhəmmədəli şah" (İslam Qəribli), "Məhəmməd Tağı Sidqi" (Gülbəniz Babayeva), "Məmməd Cəfər" Cəfərov (İsa Həbibbəyli), "Məmmədəli Sabit Manafzadə" (Vəfa Babasoy) "Məmməd Məmmədov" (Alxan Məmmədov), "Məmməd Səid Ordubadi" (Teymur Kərimli), "Məmmədəli Nasir" (Şəfəq Nasir), "Məmmədəli Sidqi (Səfərov)" (Asif Rüstəmli), "Mənasız sözlər" (Gülbəniz Babayeva), "Mərziyyə Paşayeva" (Aynurə Paşayeva), "Məsud Əlioğlu" (Qurban Bayramov), "Məşədi Ələsgər Bağırov" (Vüqar Əhməd), "Məşədi Mozalan bəy" (Elmira Qasımova), "Məşədi Sijimqulu" (Elmira Qasımova), Məşrutə inqilabı (Müştəba Əliyev), "Mətbuat xəbərləri" (Gülbəniz Babayeva), "Məzəli" (Rauf Sadıxov), "Mir Cəlal Paşayev" (Asif Rüstəmli), "Mirzağa Əliyev" (Rauf Sadıxov), "Mirzə Bala Məmmədzadə" (Asif Rüstəmli), "Mirzə Ələkbər Sabir" (Alxan Məmmədov) və s.

Bu bölgüdə 25 portret, 12 foto şəkil tərtibata daxil edilmişdir. Nəşrin 287-ci səhifəsindən 296-cı səhifəsinə qədər "Molla Nəsrəddin" jurnalının cənubi Azərbaycan üzrə abunə dəftərləri. Təbriz şəhəri üzrə abunə dəftəri (Mirzə Cəlil Məmmədquluzadə tərəfindən 1921-ci ildə tərtib edilmişdir) – başlığı altında iri həcmli cədvəl təqdim edilir. Bu cədvəldə abunə sahibləri, ünvan və pulun miqdarı, hansı saydan olduğu haqqında məlumat verilir.

Növbəti bölgü "N" hərfi üzrə aparılmışdır. Burada 11 məqalə (Nağıl, Naxçıvan, Nazim Axundov, Nehrəm, Nəriman Nərimanov, "Nəsimi-şimal", Nəsrulla Qənbərli, "Nəşri-maarif" cəmiyyəti, "Nicat" cəmiyyəti, Nizami Gəncəvinin məqbərəsi, "Novruz" verilmişdir. 3 portret, 3 foto şəkil tərtibata daxil edilmişdir.

"O" hərfi üzrə 3 məqalə nəşrdə yer alır: Ordan-burdan (Gülbəniz Babayeva), "Orucov qardaşları" mətbəəsi (Rauf Sadıxov), Oskar Şmerlinq (İsa Həbibbəyli). Bu bölmədə də 1 portret, 2 foto şəkil tərtibata daxil edilmişdir.

"Ö" bögüsü üzrə 2 məqalə "Ölülər" (Elçin Mehrəliyev), Ömər Faiq Nemanzadə (Gülbəniz Babayeva) adlı məqalələr verilmişdir. Burada isə 1 portret, 1 foto şəkil verilmişdir.

"P" hərfi üzrə qruplaşdırmada 6 məqalə - Pamflet (Elçin Mehrəliyev), Parodiya (Elçin Mehrəliyev), "Pirverdinin xoruzu" (Gülbəniz Babayeva), "Poçt qutusu" (İsa Həbibbəyli), "Poçta qutusu" (İsa Həbibbəyli), Publisistika (Gülbəniz Babayeva) yer alır. Burada isə bir foto şəkil tərtibata daxil edilmişdir.

"R" üzrə bölgüdə 4 məqalə verilmişdir: Ramiz Qasımov (Vüqar Əhməd), Rəsul Rza (Teymur Kərimli), Rüstəm Behrudi (İsa Həbibbbəyli), Rzaqulu Nəcəfov (Gülbəniz Babayeva). Burada isə 4 portret şəkil tərtibata daxil edilmişdir.

"S" üzrə aparılan bölgüdə 17 məqalə yer almışdır: "Sabir Rüstəmxanlı" (Asif Rüstəmli), "Salman Mümtaz" (İslam Qəribli), "Sancaq" (Asif Rüstəmli), "Satira" (Elçin Mehrəliyev), "Savadsızlığın ləğvi cəmiyyəti" (Gülbəniz Babayeva), "Seyidəli Behzad" (Gülbəniz Babayeva), "Seyid Hüseyn" (İslam Qəribli) və s. Bu bölgüdə də 9 portret, 4 foto şəkil tərtibata daxil edilmişdir.

Növbəti bölgü "Ş" hərfi üzrə aparılmışdır. Burada isə 8 məqalə verilmişdir: "Şeyx Məhəmməd Xiyabani", "Şeyx Nəsrullah", "Şeytanbazar", "Şəfiqə Əfəndizadə, "Şərq qadını", "Şərq qapısı", "Şərqi-Rus", "Şürbi Mirzəyev". Bu bölgü üzrə 3 portret, 4 foto şəkil yer almışdır.

"T" hərfi üzrə 22 məqalə tərtibata daxil edilmişdir: "Tapmacalar" (Gülbəniz Babayeva), "Tatar mətbuatı və "Molla Nəsrəddin" jurnalı" (Gülbəniz Babayeva), "Taziyanə" (İsa Həbibbəyli), "Teatr və musiqi" (Rauf Sadıxov), "Teleqraf Güllü" (Elmira Qasımova), "Teleqraf xəbərləri və Qəza teleqrafı" (Gülbəniz Babayeva), "Telinqater Benedikt" (Rauf Sadıxov), "Təbriz" (Asif Rüstəmli) və s.

"U" hərfi üzrə 2 məqalə, 1 foto; "Ü" gərfi üzrə 1 məqalə 1 portret, 1 foto, "V" hərfi üzrə 2 məqalə, 1 portret, 1 foto, "Y" hərfi üzrə 12 məqalə, 4 portret, 4 foto, "Z" hərfi üzrə 3 məqalə, 1 portret, 1 foto verilmişdir.

Nəşrin 425-426-cı səhifələrində "Əlavələr", 427-429-cu səhifələrdə "Doktorluq dissertasiyaları", 430-436-cı səhifələrdə "Namizədlik dissertasiyaları" başlığı altında mətn yerləşdirilmişdir. 437-ci səhifədən 457-ci səhifəyə qədər müvafiq mövzu ilə bağlı nəşr olunmuş kitabların xronoloji ardıcıllıqla siyahısı tərtibata daxil edilmişdir.





Nəşrin cildi möhkəm kartondan ibarətdir. Nəşrın daxilində tərtibata daxil edilən fotoşəkillərin bəziləri rəngli, bəziləri isə ağ-qara verilmişdir ki, bu da nəşrin nöqsanlı tərəflərindən biridir. Yaxşı olardı ki, eyni qayda bütün nəşr boyu gözlənilərdi. Hətta şəkillərin keyfiyyəti də qənaətbəxş deyil. Bəzi şəkillər görünməz haldadır.

287-296-cı səhiflərdə yer alan cədvəlin tərtibatında da nöqsanlı cəhətlər vardır. Cədvəldə yerləşdirilən mətnin şrift ölçüsü məqalə mətnlərinin şrift ölçüsündən kiçik olmalı idi. Burda isə əksinə daha böyük şrift ölçüsündən istifadə edilib.

Nəşrdə məqalələr iki sütunda yerləşdirilmişdir. Lakin bəzi sütunlarda boş qalan yerlər texniki tərtibat redaktorunun gözündən yayınmış bu da nəşrdə nöqsanlı cəhət kimi qiymətləndirilir. Məsələn səhifə 14, 18, 28, 97, 101, 108, 132, 140, 149, 158, 177, 181, 194, 202, 204, 205, 218, 222, 249, 312, 330, 344, 395, 406, 429, 436-nı qeyd edə bilərik.

25 il fəaliyyət göstərən "Molla Nəsrəddin" jurnalı Azərbaycanda satirik mətbuatın əsasını qour. Ensiklopediya vahid süjet və kompozisiya əsasında qurulmuş mükəmməl və sanballı bir əsər təsiri bağışlayır. Çünki mövzu və problematika baxımından zəngin olan bu orijinal məlumat kitabı bir neçə istiqamətdə şaxələnsə də, vahid bir məcrada, yəni "Molla Nəsrəddin" və mollanəsrəddinçilər ətrafında təmərküzləşərək mükəmməllik yaradır, ensiklopediyanın effektivliyini və əhəmiyyətini artırır.

Bütövlükdə əlifba sırası üzrə cəmi 325 məqalə tərtibata daxil edilmiş və ensiklopediya səmərəli, məsuliyyətli axtarışın nəticəsi kimi ərsəyə gəlmişdir. Təbii ki, burada təqdim edilən məqalələrdə hər bir müəllifin fədakarlığı və zəhməti danılmazdır.

## ƏDƏBİYYAT

*1. "Molla Nəsrəddin" ensiklopdiyası / Tərtib ed. və çapa hazır. Vüqar Əhməd. –Bakı: Elm, 2020. - 468 s.*

*2.https://525.az/news/161268-molla-nesreddin-ensiklopediyasi-esrin-soz-abidesi*

*3.https://az.wikipedia.org/wiki/Molla_N%C9%99sr%C9%99ddin_(ensiklopediya)*

*4. https://science.gov.az/en/news/open/16840*

*5.https://qafqazinfo.az/news/detail/ilk-defe-molla-nesreddin-ensiklopediyasi-cap-olunub-311106*